# RAMAZANOV ŞAMİL AĞASƏF OĞLU



Şamil Ramazanov 19 yanvar 1976-cı ildə Ağsu rayonunun Rəhimli kəndində anadan olmuşdur. 1993-cü ildə kənd orta məktəbində onuncu sinfi bitirmiş, bir il təsərrüfatda çalışmışdır. 1994-cü ildə Milli Ordu sıralarına çağırılmışdır. Bir neçə ay hərbi təlim keçdikdən sonra 777 saylı hərbi hissəyə göndərilmişdir. Orduda cəmi bir il xidmət etməsinə baxmayaraq, peşəkar bir döyüşçü kimi fərqlənmişdir. 1995-ci ilin məlum mart hadisələri zamanı dövlət çevrilişinə cəhdin qarşısını alarkən o, güclü atışma nəticəsində ağır yaralanmış və aldığı bu yaradan qəhrəmancasına həlak olmuşdur. Doğulduğu Rəhimli kəndində dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə Ramazanov Şamil Ağasəf oğlu ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülmüşdür. Ağsu rayonunun mərkəzindəki kinoteatr qəhrəmanın adını daşıyır.